# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**“Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 8-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 8-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə təsdiq edilmiş muxtar respublika büdcəsinin gəlirləri və xərcləri üzrə göstəricilərin yerinə yetirilməsi üçün müvafiq tədbirlər görsünlər və hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.

2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 8-VII FR nömrəli Fərmanının (bundan sonra - Fərman):

2.1. 1.6.2.2-ci (Nəşriyyat) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü barədə təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. 1.8.1.2-ci (Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü və həmin bölgüdə dəyişikliklər barədə təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi Fərmanın 1.11.3.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü barədə təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “10” yanvar 2025-ci il

№ 1s